*Aytən Ziyad qızı SƏMƏDZADƏ*
*dos., Azərbaycan Kooperasiya Universiteti*
*s_ayten@ mail.ru*

# HƏYAT SƏVİYYƏSİ VƏ MÜASİR EKOLOJİ VƏZİYYƏT

**Xülasə**

Məqalədə müasir dövrdə insanların həyat səviyyəsinə təsir edən amillər içərisində mühüm yer tutan ətraf mühit və onun tarazlığının pozulması amilləri, buna səbəb olan antropogen təsirlər araşdırılır. Məqalədə göstərilir ki, istehsalın inkişafı, iqtisadi artım insan rifahını yüksəltsə də, digər tərəfdən ekoloji tarazlığı pozur, iqlim dəyişmələrinə, təbii biomüxtəlifliyin məhvinə gətirib çıxarır. Dünya dövlətlərinin bu məsələyə həssas yanaşaraq ekoloji problemlərin birgə aradan qaldırılmasına, ekoloji tarazlığın təmin olunmasına yönələn addımları təqdir edilir. Azərbaycan da

bu ekoloji problemlərə xüsusi diqqət verərək, bir sıra öhdəliklər götürmüş, yaşıl dünya naminə onları həll etmək istiqamətində mühüm işlər görür.

***Açar sözlər: həyat səviyyəsi, ətraf mühit, ekoloji tarazlıq, yaşıl enerji, iqlim dəyişmələri***

***

21-ci əsrin 2-ci onilliyində yaşayırıq. Elmi-texniki tərəqqi, innovasiyalar bir-birini sürətlə əvəz edir. Hər bir fürsətdən istifadə edib həyat səviyyəmizi yüksəltmək, həyatımızı daha keyfiyyətli yaşamaq üçün var qüvvəmizlə çalışırıq. Texnologiyaların, yeyinti, yüngül, ağır sənayenin təklif etdiyi məhsulları tez bir zamanda əldə edib, onlardan faydalanmağa çalışırıq, müasir dünyanın bütün kəşfləri və yeniliklərindən geri qalmamaqçun. Lakin insanın Yer üzündə həyatı davam etdikcə, bilmədən, öz mənafeyi naminə təbiətdən aldığı sonsuz nemətlər əvəzində ona böyük ziyan vurmuş olur - havanı, su hövzələrini çirkləndirir, meşələri qırır, gölləri qurudur, təbii biomüxtəlifliyin məhvinə səbəb olur. Digər tərəfdən istehsalın, texnogen amillərin zərərli təsirləri nəticəsində atmosferə zəhərli qazlar buraxılır, hidrosfer zərərli tullantılarla çirklənmiş olur ki, bu da zaman keçdikcə insanların sağlamlığında, ümumilikdə həyat keyfiyyətində öz silinməz izlərini buraxır.

Əhalinin həyat səviyyəsini səciyyələndirən amillər haqqında mütəxəssislərin fikirləri zaman keçdikcə dəyişmişdir və onlar bu məfhuma daha bir sıra vacib, əhəmiyyətli kateqoriyaları daxil edirlər. Belə ki, əgər bir neçə onilliklər öncə bura əsasən əhalinin gəlirləri, məşğulluğu, iş və məişət şəraiti, demoqrafik göstəriciləri, səhiyyə, təhsil və b. xidmətlərdən istifadəyə əlçatanlığı aid edilirdisə, artıq insanların yaşadığı ətraf mühit, içməli su ilə təminat, tullantıların işlənməsi və s. onların həyat səviyyəsini müəyyənləşdirən əsas amillərə çevrilmişdir. Ekoloji tarazlıq hazırda insanın həyat səviyyəsini xarakterizə edən göstəricilər arasında mühüm yer tutur. Ekoloji təmiz şəraitdə yaşamaq, ekoloji cəhətdən təmiz məhsullarla qidalanmaq insanların həyat keyfiyyətinin müasir standartlara uyğun olduğunu nümayiş etdirir.

Alimlər əhalinin həyat keyfiyyətinə təsir edən ekoloji problemlərə 20-ci əsrin 70-80-ci illərində, ekoloji tarazlığın pozulduğu və əhalinin həyat keyfiyyətinin təhlili ilə əlaqədar olaraq diqqət yetirməyə başladılar. Bu dövrə qədər belə hesab edilirdi ki, iqtisadi artım amili kimi istehsalın intensiv inkişafında məhdudiyyət yoxdur və bu, heç də əhalinin sayından və təbii ehtiyatlardan istifadədən asılı deyildir. Yalnız ötən əsrin sonlarında istehsalın inkişafının əvvəllər tükənməz hesab edilən təbii ehtiyatların azalması fonunda artması ekologiya ilə iqtisadi inkişaf, ekologiya və əhalinin həyat keyfiyyəti arasında sıx əlaqə olduğunu göstərdi. İlk dəfə bu haqda Amerika iqtisadçısı C. Gelbreyt fikir söyləmişdir. Alim bu nəticənin yaranması və yayılmasını 20-ci əsrin ortalarında ekoloji problemlərin kəskinləşməsi, insan sağlamlığında baş verən dəyişikliklər, artan urbanizasiya prosesləri ilə izah etmiş və göstərmişdir ki, ekoloji problemlərin diqqət mərkəzində olması və həll edilməsi zəruridir [5]. Alimlərin ekoloji problemlərin artması və bəşəriyyət üçün böyük fəsadlara səbəb ola biləcəyi haqda həyəcan təbili çalması 1971-ci ildə 23 ölkənin 2200 elm və mədəniyyət xadimlərinin BMT katibliyinə müraciəti ilə BMT Baş Assambleyasının 1972-ci il dekabrın 15-də keçirilmiş 27-ci sessiyasında BMT sistemində yeni təşkilatın - Ətraf mühit üzrə BMT proqramının (UNEP) təşkil olunmasına gətirib çıxardı. Həmin ildən başlayaraq iyunun 5-inin beynəlxalq miqyasda "Ətraf mühit" günü kimi qeyd olunması qərara alındı [4 ]. Bu günü qeyd etməkdə əsas məqsəd təbiətlə amansız davranışın acı nəticələri haqda dərindən düşünmək, insanları bu problemin həlli yollarını axtarmağa çağırmaq idi. Həmin dövrdən keçən müddət ərzində dünya ölkələri ətraf mühitin qorunması, ekoloji təhlükəsizliklə bağlı mühüm sənədlər imzalamış, bir sıra beynəlxalq konvensiyalar qəbul etmiş, getdikcə artan ekoloji problemlərin həlli yollarında daha səmərəliləşdirici təkliflər irəli sürərək, mühüm addımlar atırlar.

Alimlər sübut etmişlər ki, istehsalın və istehlakın qeyri-rasional nümunələri planetə görünməmiş təzyiq göstərir. Birdəfəlik plastik məhsullar və sürətlə dəyişən modadan tutmuş qida və nəqliyyat seçimlərinə qədər hər nə varsa insanın rifahına, ətraf mühitə və iqtisadiyyata təsir edir. Qida itkisi və tullantıları qlobal istixana qazı emissiyalarının 10 faizinə qədərini təşkil edir. BMT-nin Ətraf Mühit Proqramının (UNEP) "Axının dayandırılması" hesabatının nəticələrinə görə, bu arada bəşəriyyət ildə təxminən 430 milyon ton plastik istehsal edir ki, bunun üçdə ikisi dayanıqlı olmayan məhsullardır və tezliklə tullantıya çevrilir. 2040-cı ilə qədər plastik qablar istehsalı qlobal

istixana qazı emissiyalarının 19 faizini təşkil edəcək. BMT-nin İşçi Qrupunun hesabatında göstərilir ki, insan fəaliyyəti nəticəsində yaranan istixana qazlarının tullantıları qlobal iqlimin 1850-1900-cü illərdə təxminən 1,1 dərəcə Selsi ilə istiləşməsinin əsas səbəbi olmuşdur. Bu səviyyənin qarşıdakı 20 il ərzində orta hesabla 1,5 dərəcəyə çatacağı və ya keçəcəyi gözlənilir. Bu isə problemə çox ciddi yanaşmanı tələb edir [5].

Ölkəmiz Planetimizin bir parçasıdır və vaxtilə burada fəaliyyət göstərən sənaye müəssisələrinin ətraf mühitə vurduğu ziyan, atmosferin istixana qazları ilə çirklənməsi diqqətdən uzaqda idi. Sadaladığımız bu ekoloji problemlərə bir çox obyektiv və subyektiv səbəblərdən lazımi əhəmiyyət yetirilmirdi. Hələ sovet dövründə respublikaya rəhbərlik edən ulu öndər Heydər Əliyev bu problemlərə ciddi yanaşaraq, onların həlli istiqamətində böyük səylə çalışırdı. Heydər Əliyevi narahat edən ən mühüm məsələlərdən biri Xəzər dənizinin çirklənməsinə qarşı mübarizənin lazımi səviyyədə olmaması idi. SSRİ Kimya Sənayesi Nazirliyinin Bakı və Sumqayıtda yerləşən müəssisələri tərəfindən Xəzər dənizinə hər gün xeyli miqdarda sənaye tullantısı atılırdı ki, onların da çox hissəsi təmizlənmirdi. Xəzər dənizinin kəskin çirklənməsi həm də balıqçılığa mənfi təsir göstərir və bunun nəticəsində nadir balıq növlərinin sayı xeyli azalırdı. Respublika rəhbəri SSRİ hökumətinə, müvafiq İttifaq nazirinə müraciətində bildirirdi ki, Xəzərin ekoloji tarazlığını qorumaq üçün daha təsirli tədbirlər həyata keçirilməlidir. Nəticədə 1970-ci il iyulun 25-də Sov.İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycan SSR-in xalq təsərrüfatının inkişafı haqqında qərar qəbul etdi ki, həmin qərarda yaşayış massivlərində yerləşən və istehsal gücü az olan zavodların ləğvi, bir sıra zavodların mərhələlərlə yeniləşdirilməsi nəzərdə tutulurdu. [1, s 483-484.]

Ölkəmiz müstəqil inkişafa qədəm qoyduğu illərdən başlayaraq bu sahədə daha uğurlu addımlar atılmış, qanunvericilik bazası yaradılmış, ətraf mühitin qorunmasına bilavasitə cavabdeh olan qurumlar təsis edilmiş, ölkəmiz bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, öhdəliklər götürmüşdür. Ətraf mühitin qorunması və əhalinin sağlamlığının təmin edilməsi məsələləri Heydər Əliyevin bu sahədə apardığı işləri uğurla davam etdirən Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısının təşəbbüsü ilə 2010-cu ilin ölkəmizdə “Ekologiya ili” elan edilməsi əsasən Bakı və ətraf ərazilərdə torpaqların çirklənməsi və yaşıllaşdırma ilə bağlı olmuşdur. “Ekologiya ili” çərçivəsində Bakı şəhərinin atmosfer havasının təmizlənməsi məqsədi ilə yaşıllıqlar salınmışdır. Balaxanı poliqonunun yaradılması da həmin tədbirlərin bir hissəsi idi [4 ] .

Akademik Ziyad Səmədzadə “Azərbaycan iqtisadiyyatı-100” adlı 5 cildliyində bu proses haqqında ətraflı qeyd etmişdir: “170 ildən çox olan bir dövrdə Balaxanı nəinki Azərbaycan, eləcə də dünya neftçıxarma sənayesinin inkişafında mühüm rol oynayıb. Amma bu ərazidə torpağa, ekoloji mühitə ağır zərbələr dəyib. Son dövrlərə qədər burada min tonlarla məişət tullantıları ilə dolu olan, heç bir sanitariya tələblərinə cavab verməyən böyük ərazi ciddi narahatlıq doğururdu. Ötən əsrdə ittifaq orqanlarına dəfələrlə edilmiş müraciətlərə baxmayaraq ərazinin, torpağın bərpası ilə əlaqədar tutarlı bir iş görülməmişdi... Nəhayət, 2009-cu ildə ilk dəfə olaraq respublikada məişət tullantıları müəssisəsi yaradıldı. Dünya Bankı ilə birgə həyata keçirilən “Bərk məişət tullantılarının vahid idarəçiliyi” layihəsi çərçivəsində Balaxanı poliqonunda tullantıların beynəlxalq standartlara uyğun düzgün yerləşdirilməsi və basdırılması təmin edilir. Burada tullantılardan ayrılan çirkab suları xüsusi süzgəclər vasitəsilə texniki suya çevrilərək suvarma işləri üçün istifadə edilir. Üzvi tullantıların çürüməsi nəticəsində əmələ gələn bioqazlardan isə xüsusi generator vasitəsilə elektrik enerjisi əldə olunur. Təkrar istehsal sahəsində sahibkarlar və potensial investorlar üçün əlverişli şərait yaratmaq məqsədilə Prezident İlham Əliyevin 2011-ci il dekabrın 28-də imzaladığı Sərəncam ilə Balaxanı Sənaye Parkı yaradıldı. Bu isə ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, o cümlədən “yaşıl iqtisadiyyat”ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir, həm də tullantıları enerjiyə çevirir. Azərbaycan üçün ənənəvi olmayan bu zavod istehsal gücünə görə Şərqi Avropada və MDB məkanında ən iri bu tipli müəssisədir və Avropa Birliyinin ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verir” [2, s.607-608].

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq edilmişdir. Burada göstərilir ki, qüdrətli

dövlət və yüksək rifah cəmiyyəti qurmaq üçün növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetdən biri məhz təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi istiqamətində qarşıya qoyulan vəzifələrdir. Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Yaşadığımız 2024-cü ilin Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 5-ci prioritetə xüsusi diqqət yetirilməsini zəruri edir. Bildirilir ki, Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. Burada qeyd olunur ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir [ 3].

2023-cü il dekabrında BƏƏ-nin Dubay şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası – COP-28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitində ekoloji problemlər müzakirə olunaraq, iqlim dəyişikliklərinin fəsadlarından qurtulmağın yolları araşdırılıb. Artıq təəssüflə bildirilir ki, dünyada qlobal istiləşmənin faciəvi mənzərə almasının səbəblərindən biri insan amilidir. Sənayenin sürətli inkişafı dünyanı karbon emissiyası problemi ilə üz-üzə qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də iştirak etdiyi bu Sammitin fəaliyyətinin istiqamətləri enerji keçidinin tezləşdirilməsi, yəni yaşıl, alternativ enerji mənbələrinin bütün dünyada təşviq olunması; iqlim dəyişikliklərinə qarşı mübarizədə maliyyə öhdəliklərinin götürülməsi, yəni inkişaf etmiş ölkələr tərəfindən bu sahədə maliyyə məsələlərinin həll olunması; dünyada qlobal istiləşmənin faciəvi mənzərə almasının səbəblərindən biri olan insan amilinin azaldılması olmuşdur.

Azərbaycan alternativ enerji mənbələrindən istifadəni prioritet elan edib, qlobal iqlim dəyişikliklərinə qarşı mübarizədə maliyyə öhdəliklərinin götürülməsi ilə bağlı ölkəmiz tərəfindən davamlı layihələr həyata keçirilir. Burada əsas məsələlərdən biri də 30 ilə yaxın müddətdə erməni işğalçıları tərəfindən ekoloji terrora məruz qalan ərazilərimizin bərpası, 2030-cu ilə qədər karbon neytrallığı zonasının yaradılmasıdır. Azərbaycan yaşıllaşdırma məsələsində də region üzrə öndədir və bu da Azərbaycanın karbon emissiyalarının artmasına qarşı mübarizəyə çox böyük töhfəsidir. Son illərin statistikası göstərir ki, ölkəmizin bu istiqamətdə həssaslıq indeksi artır. Ölkələrin qarşısında duran əsas vəzifə erkən xəbərdarlıq sisteminin yaradılmasıdır ki, bu da 2027-ci il üçün əsas vəzifə qoyulub. Ölkəmiz hidrometeoroloji sahədə ən müasir qurğularla təchiz olunub. [7].

Ümumilikdə COP tədbirlərinin məqsədi, 2015-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin 21-ci konfransında qəbul olunan Paris Razılaşmasının tələbi olaraq dünyada karbon qazının miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaqdır. [8]

COP-29 Sammitinin 2024-ci ilin noyabrında Bakıda keçirilməsi ölkəmizin ətraf mühitin qorunması və ekoloji təhlükəsizliyin əldə edilməsinə böyük əhəmiyyət verdiyini və bu problemə xüsusi həssaslıqla yanaşdığını bir daha sübut edir. COP-29 tədbiri iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək istiqamətində konkret addımlar atmaqda mühüm bir fürsət kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT


1. Səmədzadə Z. Ə. "Azərbaycan iqtisadiyyatı 100 ildə", I cild, Bakı, 2022,
2. Səmədzadə Z.Ə. "Azərbaycan iqtisadiyyatı 100 ildə", III cild, Bakı, 2022,
3. https://president.az/

4. https://eco.gov.az/
5. https://applied-research.ru/ru/article/view?id=6931
6. https://www.unep.org/ru/novosti-
7. www.iqtisadiyyat.com
8. http://www.scrf.gov.ru/security/economic/document24/

***Айтен Зияд кызы Самедзаде***
***доц., Азербайджанский Университет Кооперации***
***s_ayten@ mail.ru***

**Уровень жизни и современная экологическая ситуация**

***Резюме***

В статье рассматривается окружающая среда и ее дисбаланс, занимающий важное место среди факторов, влияющих на уровень жизни людей в современное время, что обусловлено антропогенным воздействием. В статье показано, что развитие производства и экономический рост хотя и повышают благосостояние человека, но, с другой стороны нарушают экологическое равновесие, приводят к изменению климата, уничтожению природного биоразнообразия. Оцениваются шаги, предпринимаемые странами мира в направлении совместного устранения экологических проблем и обеспечения экологического баланса. Азербайджан также уделяет особое внимание этим экологическим проблемам, наше государство взяло на себя ряд обязательств и проводит важную работу по их решению во имя зеленого мира.

***Ключевые слова: уровень жизни, окружающая среда, экологический баланс, зеленая энергетика, изменения климата.***

***Ayten Ziyad Samadzade***
***Assoc. prof. Azerbaijan Cooperation University***
***s_ayten@ mail.ru***

**Standard of living and modern environmental situation**

***Summary***

The article examines the environment and its imbalance, which occupies an important place among the factors influencing the standard of living of people in modern times, as well as anthropogenic influences. The article shows that the development of production and economic growth, although they increase human well-being, but, on the other hand, upset the ecological balance, lead to climate change, and the destruction of natural biodiversity. The steps taken by countries around the world towards jointly eliminating environmental problems and ensuring environmental balance are assessed. Azerbaijan also pays special attention to these environmental problems; our state has taken on a number of obligations and is carrying out important work to solve them in the name of a green world.

***Key words: standard of living, environment, ecological balance, green energy, climate change.***